*YAP Gilan Qəbələ Konserv zavodu ilk təşkilatında*

# Yeni Azərbaycan Partiyası üzvlərinin sayı artır



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ərəfəsində Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının ilk təşkilatlarında silsilə tədbirlər davam edir. Belə tədbirlərdən biri 13 mart 2015-ci ildə Gilan Qəbələ Konserv zavodu ilk təşkilatında keçirilib. Tədbirdə təşkilatın yüzə qədər üzvü iştirak edirdi.

Tədbiri giriş sözü ilə YAP Gilan Qəbələ Konserv zavodu ilk təşkilatının sədri E. Məmmədov açaraq bildirdi ki, partiyamız 22 ildən artıq şərəfli bir yol keçmişdir. Həmin şərəfli yol bu gün də cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Natiq qeyd etdi ki, partiyanın zavod ilk təşkilatı yarananda onun sıralarında cəmi 25 nəfər üzv vardısa indi onun sıralarında üzvlərin sayı 200 nəfərə çatmışdır.

Sonra söz YAP Qəbələ rayon təşkilatının sədr müavini Elçin Tağıyevə verildi. O, partiyanın yaradıcısı ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövr 1969-1982-ci illər və ikinci dövrü əhatə edən 1993-2003-cü illər ərzində Azərbaycanda gedən inkişafdan, ulu öndərin xidmətlərindən, onun dövlətçilik siyasətindən geniş danışdı. O, ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışaraq onun siyasi xəttinin və ideyalarının bugün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri möhtərəm İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusilə qeyd etdi. E. Tağıyev YAP-ın iqtidarda olduğu illərdə respublikamızda və Qəbələ rayonunda görülən sosial quruculuq işlərindən və iqtisadiyyatın inkişafından geniş danışdı. Bu işlərin həyata keçirilməsində ölkə rəhbəri cənab İlham Əliyevin və rayon rəhbərliyinin zəhmətinin böyük olduğunu qeyd etdi.

Tədbirdə partiya üzvlərindən Xəyyam Həmidov, Müsavər Kərimov və Mübariz Rəhimov çıxış edərək YAP-ın ictimai-siyasi həyatdakı rolundan və dövlətçiliyimizin qarşısındakı xidmətlərindən danışdılar.

Tədbirdə partiya sıralarına yeni qəbul olunan 41 nəfərə üzvlük vəsiqələri təqdim olundu.

**«Qəbələ».**

# Heydər Əliyev irsi öyrənilir

Heydər Əliyev Mərkəzində ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün təşkil olunmuş Heydər Əliyev irsini öyrənən məşğələlər davam edir. Əvvəlki aylarda olduğu kimi fevral ayında və mart ayının keçən həftəsində dərslər müəyyən edilmiş qrafik üzrə təşkil olunmuşdur.

Hər növbəti dərs günün iki növbəsində təşkil edilir və dərslərin hər birinə 35—40 nəfər və daha çox şagird cəlb olunur. Eyni zamanda dərslərə ən təcrübəli və savadlı tarix müəllimləri dəvət alır. Məşğələlərin təşkilinə rayon təhsil şöbəsinin məsul işçilərinin növbə ilə nəzarəti təmin edilir.

Dərslər üç mərhələdə keçirilir. Birinci mərhələdə müəllimlər məktəblilərə Heydər Əliyevin yeniyetmə və gənclik illəri, sonrakı mərhələdə siyasi fəaliyyəti barədə geniş məlumat verirlər. Yəni verilən nəzəri bilik zamanı şagirdlər böyük şəxsiyyətin qısa tərcümeyi-halı, sonra zəngin və dünya təcrübəsinə əsaslanan siyasi fəaliyyəti, Azərbaycan xalqına xüsusi məhəbbəti, xalqı müstəqilliyə qovuşdurmaq üçün apardığı mübarizə əzmi barədə geniş məlumat alırlar. Şagirdlər üçün qaranlıq qalan bəzi məqamlara müəllimlər və şagirdlər arasında təşkil edilən dialoqlar aydınlıq gətirir.

İkinci mərhələdə şagirdlər Heydər Əliyevin həyat və siyasi fəaliyyətini əks etdirən vidio-lentə tamaşa edir, üçüncü mərhələdə isə Mərkəzdə dahi şəxsiyyətin həyat və fəaliyyətini əks etdirən ekspozisiya salonu ilə tanış olurlar. Burada nümayiş etdirilən foto-stendlər, rəsmi sənədlər, məruzə və çıxışlar toplanmış, çoxcildli kitablar şagirdlərin yaddaşında daha dərin iz salır.

Mərkəzdə Heydər Əliyevin irsini öyrənən dərslər davam edir.

**Heydər Əliyev Mərkəzi.**

# Respublika müsabiqəsinin zona mərhələsi

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində bədii ifa üzrə respublika müsabiqəsinin zona mərhələsi keçirilmişdir.

Müsabiqənin keçirilməsində məqsəd peşə və orta ixtisas təhsili müəssisələrinin şagirdləri arasında xüsusi istedada malik gəncləri üzə çıxarmaq, ifa mədəniyyətini yüksəltməkdir.

Müsabiqə Azərbaycan bəstəkarlarının estrada mahnıları, təsnif və xalq mahnıları, bədii qiraət və milli rəqs ifaçılığı nominasiyaları üzrə keçirilir.



Qəbələdə keçirilən zona mərhələsində Balakən, Zaqatala, Qax, Oğuz, Şəki və Qəbələ rayonunun peşə təhsili və orta ixtisas müəssisələrinin şagirdləri iştirak etmişlər.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təşkil olunan müsabiqənin zona mərhələsində qalib gələn iştirakçılar aprelin 24-də keçiriləcək ümumrespublika yekun tədbirində iştirak edəcəklər.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin şagirdi Əfsanə Nəbiyeva şeir nominasiyası üzrə yarışmanın final mərhələsində iştirak etmək hüququ qazanmışdır.

**N. ATAKİŞİYEV.**

# Novruz dostluq və qardaşlıq bayramıdır

Novruz bayramı elimizin-obamızın qədim tarixinə köklənmiş,adət-ənənələrimizi, milli ruhumuzu özündə əks etdirən ən gözəl el şənliyimizdir. Bu bayram illərin sınağından keçərək əxlaqımıza, mədəniyyətimizə hopdu, milli kimliyimizi təcəssüm etdirən bir amilə çevrildi.

Novruz təqvimi ən qədim təqvimlərdən biri hesab edilir. Novruzla bağlı bizə məlum olan ən qədim təqvim miliaddan öncə 505-ci ildə bərpa edilmiş «Yeni Avesta» təqvimidir. Buna Zərdüşt salnaməsi də deyirlər. Qədim «Avesta» təqviminə görə, ilin uzunluğu 360 gün, hesab olunmuş, dəqiqlik itməsin deyə, ilə hər altı ildə bir ay, hər yüz iyirmi ildə isə daha bir ay əlavə edilmişdir. Əhəməni hökmdarı Daranın dövründə bərpa edilmiş Zərdüşt salnaməsinə görə isə ilin uzunluğu 365 gün hesab edilmiş, ilə hər dörd ildə bir gün, hər 120 ildə bir ay əlavə edilmişdir.

Əslində Novruz türk dünyasının bayramıdır. Uzun əsrlər və qərinələr boyu əsasən köçəri həyat tərzi sürmüş, xüsusilə maldarlıqla məşğul olaraq ilin fəsillərini daha çox yaylaq-qışlaq mövsümləri ilə tənzimləyən türklər ilin bu fəslini təbiətin oyanışının başlanğıcı hesab edərək, bütün işlərini və hesablarını baharın gəlişinə, iş-gücün bu zaman başlanmasına bağlamışlar, hətta türk sultanları bahar fəslinin ilk gününü—21 mart təqvim ilinin ilk günü kimi təyin edərək vergilərin toplanması zamanı da həmin günə nisbətdə təyin etdilər.

Yazın ilk günü xalq qarın, qışın getməsindən və təbiətin ayılmasından sevinib şadlıqlarını müxtəlif mərasimlərdə əks etdirməklə baharı qarşılamışlar. Baharda nəinki təbiət canlanır, al-əlvan geyinir, bütün çöl-çəmən, dağ-meşə yaşıllığa bürünür. Eyni zamanda bütün canlı aləm hərəkətə gəlir.

Novruz bütün türk dünyasına xas olsa da, Azərbaycanda daha möhtəşəm qeyd edilir. Xalqımızın böyüklüyü ondadır ki, heç bir qadağa ona Novruzu unutdura bilməmişdir. O, ən çətin zamanlarda belə öz bayramını qoruyub yaşatmış, milli adət-ənənələrini unutmamış, onları bu günümüzə gətirib çatdırmışdır.

Hələ respublikamıza rəhbərliyinin birinci dövründə ulu öndər Heydər Əliyev sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşırdı. Novruzun qədim köklərə malik olduğunu, xalqımızın qəlbində əbədi yaşadığını vurğulayan ulu öndər Heydər Əliyev bu bayramın imperiyanın sərt rejimi dövründə respublika miqyasında yüksək səviyyədə keçirilməsinə nail olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımız necib adətlərin, milli dəyərlərin, xeyirxahlığın, insana, təbiətə məhəbbətin tərənnümçüsü olan Novruzu daha böyük təntənə ilə qeyd etməyə başlamışdır. Novruz bütün çətinliklərdən, sınaqlardan keçərək öz haqqına qovuşdu. Novruza ümumxalq mahiyyəti verən ulu öndər Heydər Əliyev bayramlarda xalqla bir yerdə olur, insanları təbrik edir, xalqımıza milli birlik və həmrəylik tövsiyə edirdi. Novruzu xalqımızın əziz bayramı kimi səciyyələndirən Heydər Əliyev bu xidməti ilə də xalqın qədim adət ənənələrinə son dərəcə bağlılığını göstərmişdir.

Təbiətlə əlaqədar olan bu gözəl bayramlarımızın indi dövlət səviyyəsində qeyd edilməsi həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiramın əlamətidir. Bu, keçmişimizi bu günümüzlə bağlamaq, onu qoruyaraq gələcəyə aparmaq deməkdir. Novruzu milli dəyərlərimizin təcəssümü adlandıran Prezident İlham Əliyevin hər il bayram şənliklərində iştrak etməsi, əhali ilə bayramlaşması bayram ovqatını daha da artırmaqla yanaşı, xalqla iqtidar arasında sıx vəhdəti də sübut edir. «Novruz gələcəyə inam hissi aşılayır. Könüllərdə ən ali duyğuları oyadır, insanları daha xeyirxah, mərhəmətli və mehriban olmağa çağırır»—deyən Prezident İlham Əliyev Novruzun insanlarda qurub-yaratmaq əzmi aşılayan bayram olduğunu da qeyd etmişdir.

İndi Azərbaycan Novruzu yeni siması ilə qarşılayır. Bölgərimizin, o cümlədən doğma Qəbələmizin abadlaşması istiqamətində görülən irimiqyaslı işlər təbiətin yeniləşməsi ilə həmahənglik təşkil edir. Hər tərəfdə gedən abadlıq-quruculuq işləri Qəbələnin əsl yüksəliş yolunda olduğunu bir daha təsdiqləyir. Bu işlərin qədimiliyini, tarixiliyini qorumaq, müasir standartlar tətbiq etməklə aparılması rayonda tarixi keçmişimizə diqqətdən xəbər verir.

Bu gün fərəhlə qeyd etmək olar ki, Müstəqil Vətənimiz Azərbaycanda Novruz artıq rəsmi bayram kimi qeyd edilir. Qeyd etməliyik ki, Novruz adlı bahar bayramımız onunla bağlı mərasimlərimiz, adətlərimiz Azərbaycandan kənarda, başqa şərq elləri arasına da geniş miqyasda yayılmış və qeyd edilir. Bu gözəl mərasimlər sözün əsl mənasında sülh, dostluq, qardaşlıq və əmin-amanlıq bayramıdır.

**Aslan CƏLİLOV.**